# Dünyasını dəyişənlərin xatirəsinə

## MUSİQİŞÜNAS-ALİM SÜRƏYYA AĞAYEVA



**SÜRƏYYA XOSROV QIZI AĞAYEVA**

Azərbaycan mədəniyyətinə və musiqişünaslıq elminə ağır itki üz verib. Tanınmış musiqişünas-alim, Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, Əməkdar incəsənət xadimi, sənətşünaslıq namizədi, professor Sürəyya Ağayeva 2024-cü il oktyabrın 18-də ömrünün 78-ci ilində vəfat edib.

Sürəyya Xosrov qızı Ağayeva 29 aprel 1947-ci ildə Bakıda anadan olub. Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) bitirib. 1979-cu ildə Moskvada ilk dəfə Orta əsrlər yazılı mənbələri - əlyazmaların araşdrılması nəticəsində “Əbdülqadir Marağayi və onun musiqi-nəzəri irsi (XIV-XV əsrlər)” mövzusunda dissertasiya işini müdafiə edərək sənətşünaslıq üzrə elmlər namizədi (fəlsəfə doktoru) alimlik dərəcəsi alıb.

Azərbaycan musiqişünaslıq elminin formalaşması və inkişafına dəyərli töhfələr verən alim Orta əsrlər musiqi sənətimizin, o cümlədən muğamın tədqiqatçısı kimi mövzuya dair çoxsaylı elmi əsərlərin müəllifidir. Görkəmli musiqişünasın muğam sənəti, etnomusiqişünaslıq elmi üzrə əsərləri azərbaycan, rus, türk, fars, ingilis dillərində çap olunub. Belə ki, Əbdülqadir Marağayi (Bakı: “İşıq”, 1983. rus dilində), “Ruhperver”- XVII. yüzyıl müzik teorisi (Ankara, 2008, türk-ingilis dillərində) kitablarının, “Çaqanə və kamança: tarix və müasir dövr”, «Азербайджанский мугам», «Трактаты А.Мараги «Джаме аль-альхан» и «Favaid-i aşara», «О взаимосвязи традиционного музыкального жанра Азербайджана - мугам и поэзии», «О классификации звука и вокальном исполнительстве в трактатах Абдулгадира Мараги», “Azərbaycan musiqi mədəniyyətinin incisi - muğam”, “Müasir orqanologiyanın problemlərinin işıqlandırılmasında orta əsr musiqi risalələrin müqayisəli təhlilinin əhəmiyyəti” və s.

Sürəyya Ağayeva 1978-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olub. İttifaqda elmi məqalələr ilə yanaşı Bəstəkarlar İttifaqının sədri Xalq artisti, professor Firəngiz Əlizadə ilə birgə «Энциклопедия азербайджанского мугама» (“Azərbaycan Muğam Ensiklopediyası”) nəşrinin həm müəllifi, həm də tərtibatçısı olmuşdur. Bu nəcib tərtibatda nəşr olunan ensiklopediya musiqişünas-alimlər üçün böyük mənbədir.

Müxtəlif beynəlxalq, respublika elmi konfranslarında iştirak edən, Azərbaycan musiqişünaslıq elminin dünyada tanınmasında mühüm xidmətləri olan musiqişünas-alim UNESCO “Ənənəvi musiqi üzrə Beynəlxalq Şura”nın üzvü, Society for Ethnomusicology (SEM) - ”Etnomusiqişünaslar cəmiyyəti”nin üzvü, Central Eurasian Studies Society (CESS) - “Mərkəzi Avrasiya Araşdırmaları cəmiyyəti”nin üzvü, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun “Musiqi tarixi və nəzəriyyəsi” şöbəsinin aparıcı elmi işçisi kimi çalışaraq muğam sənətinə misilsiz xidmət etmişdir.

Musiqi mədəniyyətindəki xidmətlərinə görə “Azərbaycanın Əməkdar incəsənət xadimi” fəxri adına layiq görülən musiqişünas, TÜRKSOY-un “Türk dünyası mədəniyyətinin və incəsənətinin inkişafında xidmətlərinə görə” medalı ilə də təltif olunmuşdur.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri professor Firəngiz Əlizadə başda olmaqla Ittifaqın idarə heyəti və üzvləri adından Sürəyya xanıma Tanrıdan rəhmət diləyir, ailəsinə dərin hüznlə başsağlığı veririk.

Allah rəhmət eləsin!

***Azərbaycan Bəstəkarlar İttifaqı***